IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 23 Issue 01 AVGUST 2026

XX ƏSR AZƏRBAYCAN UŞAQ POEZİYASININ İNKİŞAF MEYLLƏRİ

Şəlalə Mahmudova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
shalale.makhmudova@mail.ru
https://doi.org/10.5281/zenodo.22170131

Xülasə: Məqalədə XX əsr Azərbaycan uşaq poeziyasının inkişaf meylləri, ideya-bədii xüsusiyyətləri araşdırılmışdır. Qeyd olunmuşdur ki, uşaq poeziyası tərbiyəvi mahiyyəti ilə uşaqlara mənəvi-əxlaqi keyfiyyətlər aşılamaqla yanaşı, onlarda estetik zövq formalaşdırır. Bu baxımdan, uşaq poeziyası yetişməkdə olan gənc nəslin əxlaqi, intellektual və psixoloji inkişafını şərtləndirən fundamental bir tərbiyə vasitəsidir. XX əsrin əvvəllərində ölkədə uşaq ədəbiyyatının müstəqil bir sahə kimi yeni-yeni formalaşdığı bir zamanda maarifpərvər şairlərimiz həm dünya ədəbiyyatından poetik nümunələri tərcümə etmiş, həm də orijinal əsərlər meydana gətirmişlər. Onların ən əsas məqsədi isə uşaqları məktəbə cəlb etmək, savadsızlığın qarşısını almaqdan ibarət idi. M.Ə.Sabir, A.Səhhət, M.Seyidzadə, A.Şaiq və digər qələm sahibləri azyaşlı oxucuların təfəkküründə, anlam səviyyəsinə uyğun, yaddaqalan poetik nümunələr yazmışlar. Bu poetik nümunələrdə doğma Vətənə sevgi bəsləmək və gələcəkdə cəmiyyətə, dövlətə fayda verə biləcək kamil bir vətəndaş kimi yetişmək ideyaları təbliğ olunurdu. Həmin əsərlərin yazılmasından bir əsr keçməsinə baxmayaraq, bu bədii nümunələr günümüzdə də öz tərbiyəvi və estetik əhəmiyyətini qoruyub saxlayır və müasir uşaqlar tərəfindən böyük sevgi ilə qarşılanır.
Açar sözlər: uşaq şeirləri, tərbiyəvi əhəmiyyət, estetik zövq, maarifçilik ideyaları

DEVELOPMENT TRENDS OF THE 20TH CENTURY AZERBAIJANI CHILDREN'S POETRY

Abstract: This article analyzes the developmental trends, as well as the thematic and artistic characteristics, of Azerbaijani children's poetry in the 20th century. It notes that, thanks to its educational nature, children's poetry not only instills moral and ethical values but also shapes aesthetic taste in children. In this regard, children's poetry serves as a vital educational tool that shapes the moral, intellectual, and psychological development of the rising generation. In the early 20th century, a period when children's literature was beginning to emerge as a distinct field in the country, enlightenment-oriented poets contributed to the genre by both translating poetic works from world literature and creating original pieces. Their primary objective was to encourage school attendance and combat illiteracy. Masters of the written word such as M.A. Sabir, A. Sahhat, M. Seyidzade, A. Shaig, and others created memorable poetic works tailored to the thinking and comprehension levels of young readers. These poetic works promoted the cultivation of love for the native land and the ideal of growing into mature citizens capable of benefiting society and the state in the future. Although a century has passed since their creation, these literary pieces retain their educational and aesthetic significance to this day and are embraced with great affection by children of the present generation.
Keywords: children's poetry, educational significance, aesthetic pleasure, Enlightenment ideas.

Giriş

Uşaq ədəbiyyatının ən zəngin və fundamental qollarından biri olan uşaq poeziyası sadəcə ritmik misralar toplusu deyil, fərdin formalaşmasında rol oynayan mühüm pedaqoji və estetik

vasitədir. İlk beşik nəğmələrindən və laylalardan başlayan bu poetik səyahət uşağın dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, onun bədii təfəkkürünü və dünyagörüşünü də formalaşdırır. Poetik dilin ritmi, qafiyəsi və obrazlılığı uşaq psixologiyasına birbaşa təsir edərək, onlarda estetik zövqün təməlini qoyur.

XX əsrin əvvəlləri Azərbaycan uşaq poeziyasının qızıl dövrü və formalaşma mərhələsidir. Bu dövrdə Azərbaycan uşaq poeziyasının təşəkkülündə Mirzə Ələkbər Sabirin və Abbas Səhhətin böyük rolu olmuşdur. Sonrakı illərdə bu estafetə Abdulla Şaiq və Mirmehdi Seyidzadə kimi sənətkarlarımız da qoşulmuşlar. Bu dövrdə yazılmış uşaq şeirlərinin əsas qayəsini maarifçilik ideyalarının təbliği, vətənpərvərlik, əməksevərlik, əxlaqi-didaktik mövzular təşkil edirdi.

Tədqiqat

Görkəmli şairimiz Mirzə Ələkbər Sabir (1862-1911) XX əsr Azərbaycan ədəbiyyatının tarixində silinməz iz qoymuşdur. Şairin yaradıcılığı olduqca zəngin və çoxşaxəlidir. O, ictimai məzmunlu satirik şeirlər yazmaqla yanaşı uşaqlar üçün bir sıra şeir, mənzum hekayə və təmsillər də yazmışdır.

M.Ə.Sabirin "Hophopnamə"sinə daxil olan "Uşaqlara hədiyyə" silsilə şeirlərinin əsas qayəsini kiçikyaşlı oxucuların mənəvi-estetik tərbiyəsi, onlarda elmə, təlimə, təbiətə, əməyə sevgi hissinin formalaşdırılması təşkil edir. Şairin "Məktəb uşaqlarına töhfə", "Elmə tərğib", "Məktəbə tərğib", "Cütçü", "Yaz günləri", "Uşaq və buz" şeirləri uşaqların təlim-tərbiyəsi baxımından diqqətəlayiqdir.

Şair "Elmə tərğib", "Məktəbə tərğib" şeirlərində kiçik yaşlı oxucuları təlimə, təhsilə, elmə dəvət edir. Bu şeirlərdə şair məktəbin, elmin insana böyük fayda bəxş etdiyini söyləyir, elmə, biliyə yiyələnməyin vacibliyini vurğulayır. Müəllifə görə, tərəqqi və nailiyyətlərin yeganə açarı elmin və savadın gücündə gizlənir. "Elmə tərğib" şeirində şair söyləyir ki:

Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elmlə bərqərar olur.
Oxuyun, əzizlərim, oxumaq zamanıdır!
Oxumaq hər adamın ədəbi nişanıdır! [2, s.329]

"Məktəb uşaqlarına töhfə" şeirində isə şair gənc nəslə valideyinin zəhmətini uca tutmağı, onların əməyini itirməməyi, onlara layiq bir övlad kimi yetişməyi tövsiyə edir. O, söyləyir ki, uşaq ikən ata-anamız bizim əziyyətimizi çəkmiş, hər bir çətinliyə sinə gərərək bizim sağlığımız, varlığımız, böyüyüb boya-başa çatmağımız üçün əllərindən gələni əsirgəməmişlər. Odur ki, onların xeyir-dualarını alıb onlara olan borcumuzu layiqincə qaytarmalı, valideynlərimizin qulluğunda durmalıyıq.

Ata hər gün gedər işə, çalışar,
Nə qədər zəhmət olsa da, alışar...
...Ana övlada vəqf edər özünü –
Yumamaz, yummasa uşaq gözünü... [2, s.333]

Unudulmaz şairimiz digər şeirlərində də əxlaqi mövzulara toxunmuşdur. Onun "Qarınca", "Cütçü" şeirləri əməyə məhəbbət mövzusundadır. Bu şeirlərində şair gənc nəsli zəhmətkeş, əməksevər, çalışqan olmağa səsləyir.

Şairin "Cütçü" şeiri əruz vəzninin səri bəhrində yazılmışdır. Bu şeir dil-üslub baxımından axıcılığı ilə diqqəti cəlb edir, yaddaqalan olması, şirinliyi, səlisliyi ilə seçilir. Şeirdə zəhmətkeş cütçü obrazı yaradan şair oxucularına belə bir fikir aşılayır ki, hər bir insan əməyi

sevməli, işgüzar, çalışqan olmalı, ailəsinə, ən əsası isə, xalqına xidmət göstərməlidir. Şeirin məzmunu belədir. Cütçü yayın qızmar istisindən qorxmayaraq qan tər içində tarlasını şumlayır. Zəhmətkeş cütçü indi əziyyət çəksə də, bilir ki, sonda onun bəhrəsini yığıb həm ailəsini, həm də elini dolandıracaq. Şair şeirin sonunda belə deyir:

İndi əgərçi ona zəhmət olar,
Qışda əyalı, özü rahət bular.
Cəm edəcək tarlasının hasilin,
Bəsləyəcək ailəsin, həm elin [2, s.332].

Şeirin ideyası xalq deyimi ilə səsləşir: "İşləməyən, dişləməz", yaxud, "Cəfa çəkməyən, səfa görməz" və s.

Şairin digər şeirləri də ibrətamiz xüsusiyyətə malikdir. Onun "Uşaq və buz" şeirində kiçik qəhrəman qışda qarlı bir gündə məktəbə gedərkən sürüşür və yıxılır. Ancaq o, yıxılmasına baxmayaraq, ağlamır, geri çəkilmir, üzünü buza tutaraq ona sanki, meydan oxuyur, tezliklə yaz gələcəyini və buzun əriyib suya dönəcəyini söyləyir. Şair bu şeir vasitəsilə uşaqlara demək istəyir ki, həyat başdan-başa çətinliklərdən ibarətdir. Amma gərək hər xırda çətinlikdən qorxub geri çəkilməyəsən və yalnız irəliyə doğru qorxmadan addımlayasan. Çünki həyat bir məktəbdir, o, cəsur, qorxmaz, mətanətli olmağı, çətinliklərə sinə gərməyi öyrədir.

Şairin cəmi 8 misra və 7 hecadan ibarət olan "Yaz günləri" şeiri təbiət mövzusundadır. Misra və heca sayının az olması şeirin kiçikyaşlı uşaqlar tərəfindən asanlıqla əzbərlənməsinə imkan yaradır. Şeirin qəhrəmanı balaca uşaqdır. O, yazın gəlişinə sevinir:

Gəl, gəl a yaz günləri!
İlin əziz günləri!

Dağda ərit qarları,
Bağda ərit qarları:

Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.

Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək [2, s.330].

Romantizm cərəyanının görkəmli nümayəndəsi Abbas Səhhət - Abbasqulu Əliabbas oğlu Mehdizadə (1874-1918) mürəkkəb bir zamanda pedaqoji, bədii, publisistik və tərcüməçilik fəaliyyəti ilə XX əsr Azərbaycan ədəbiyyatı tarixində, maarifçilik ideyalarının inkişafında əhəmiyyətli rol oynamışdır. 1904-cü il "Şərqi-rus" qəzetində ilk şeirini "Abbasqulu təbib Mehdiyev Şamaxılı" imzası ilə nəşr etdirən sənətkar sonralar "Şeyx Şeypur", "A.S." və "Abbas Səhhət" təxəllüsü ilə yazıb-yaratmışdır. "Cavan yaşlarından ömrünün sonuna qədər müəllimlik edən, dərsliklər yaradan şair uşaq və gənclər üçün müxtəlif janrlarda əsərlər yazmış, milli uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaradan klassiklər səviyyəsinə yüksəlmişdir" [3, s.3]. 1909-cu ildə yazdığı "Vətən" şeiri isə şairin şah əsərlərindəndir. Bu şeir bu gün də öz aktuallığını qoruyub saxlayır, könülləri fəth etməkdə davam edir. Şeir Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusunda yazılmış ən fundamental və təsirli klassik əsərlərdən biridir. Şair Vətəni sevməyən, onun qədrini bilməyən insanları sərt şəkildə qınayır. Onları "naxələf" adlandırır:

Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.

Vətənin sevməyən insan olmaz,
Olsa ol şəxsdə vicdan olmaz! [6, s.48]

Müəllif bu əsəri ilə oxucuya aşılayır ki, insanın kimliyi, şərəfi və mənəviyyatı onun Vətənə olan münasibəti ilə ölçülür.

Şairin "Yaz" şeiri Azərbaycan uşaq poeziyasında təbiətin oyanışını təsvir edən ən gözəl nümunələrdən biridir. A.Səhhət burada yaz fəslinin gəlişini rəngarəng boyalarla canlandırır:

O gün ki fəsli-yaz olar,
Gecə, gündüz taraz olar.
Havanın artar istisi,
Daha soyuqluq az olar [6, s.161].

A.Səhhətin "Məktəb şagirdi", "Məktəb uşağı", "Ata və uşaq" şeirlərində də məktəbə, təhsil almağa çağırış, maarifçi ideyalar bədii qayənin əsasını təşkil edir.

"Məktəb uşağı" şeirində şair vətənin gələcəyinin birbaşa elm öyrənməyə can atan gənclərdən asılı olduğunu vurğulayır:

A çocuq! Ey şərəfəfzayi-vətən,
Ey güli-gülşəni-rənayi-vətən!
Sən əzizi-vətənü millətsən,
Səməri-nəxleyi-ülviyyətsən.
Oxu, ey bülbüli-şeydayi-vətən!
Ta sənə fəxr edə əhnayi-vətən.
Nəğəmatında var asari-nicat,
Oxu, ey bülbüli-şirinnəğamat [6, s.156].

Məsnəvi forasında yazılmış bu əsər ərəb-fars tərkibləri ilə zəngin olsa da, irəli sürülən əsas ideya aktuallığını bu gün də qoruyub saxlayır.

Abdulla Şaiq Mustafa oğlu Talıbzadə (1881-1959) uşaq ədəbiyyatına böyük töhfələr vermiş, bədii əsərlər yazmaqla yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuş, eyni zamanda uşaqlar üçün dərsliklər yazmışdır. "Uşaq gözlüyü", "İkinci il", "Gülşəni-ədəbiyyat", "Gülzar", "Milli qiraət", "Qiraət kitabı", "Dördüncü il", "Türk çələngi", "Müntəxəbat" dərsliklərini tərtib edən sənətkar Azərbaycan maarifçiliyi tarixində misilsiz xidmətlər göstərmişdir.

A.Şaiqin uşaq yaradıcılığı mövzu baxımından çox rəngarəngdir. Onun əsərlərində vətənpərvərlik, ana təbiətin gözəlliklərini təcəssüm etdirən əsrarəngiz lövhələr, heyvanlara, quşlara, digər canlılara məhəbbət, əməksevərlik, elmə-biliyə çağırış və digər əxlaqi-tərbiyəvi motivlər başlıca yer tutur. Şairin "Ana yurdum", "Vətən", "Vətən nəğməsi" kimi şeirlərində kiçik yaşlı oxuculara vətənin anamız qədər doğma, əziz olması, onu qorumağın hər birimizin amalımıza çevrilməsi, müqəddəsliyi fikirləri aşılanır.

Hər bir uşağın məktəbəqədər yaş dövründən əzbər bildiyi "Xoruz", "Keçi", "Uşaq və dovşan", "Quzu", "Yetim cücə" şeirləri məzmun və məna dərinliyi ilə uşaq poeziyamızın klassik nümunələri sırasına daxil olmuşdur. Bu şeirlərdə şair xoruzu, keçini, dovşanı, quzunu, cücəni o

qədər səmimi, sadə bir dillə təsvir edir ki, uşaqlarda həm heyvanlara qarşı xeyirxahlıq, məhəbbət hissi oyadır, həm də bu şeirləri əzbərləməyə onlarda böyük bir həvəs yaradır.

Onun uşaq şeirləri oxucularını ətraf aləmlə - təbiət hadisələri, müxtəlif çiçəklər, bitkilərlə, quşlar və həşəratlarla yaxından tanış etmək, onların xüsusiyyətləri, faydaları barədə məlumat və bilik vermək məqsədi daşıyır, həmçinin uşaqlarda estetik zövq formalaşdırır. Buna misal olaraq "Bülbül", "Arı", "Kəpənək", "Qızılgül", "Bənövşə", "Zanbaq", "Qərənfil", "Səhər", "Payız gecəsi", "Bahar", "Tonqal" və s. şeirlərini göstərmək olar. Bu şeirlər balaca uşaqlarda təbiətə, onun gözəlliklərinə məhəbbət hissi təlqin edir.

Sənətkar peyzaj lirikasında yazdığı şeirlərində güclü poetizmlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək onların daha da oxunaqlı olmasına səy göstərmişdir. Şair "Bahar" şeirində bu fəsildə yağan yağışların ellərə sevinc, fərəh, şənlik gətirdiyindən bəhs edərək deyir:

Qoy sel kimi yağsın yağış,
İnəyini sağsın yağış.
Çöllər, sünbül saçlı əkin
Parıldasın qızıl təkin [8, s.49].

Göründüyü kimi, şair bu kiçicik şeirdə yağışı selə, sünbülü qızıla bənzətməklə təşbeh, yağışın inəyini sağması kimi metaforadan istifadə edərək şeirin poetik təsir gücünü artırmağa müvəffəq olmuşdur.

"Zanbaq" şeirində zanbağın çətir açması, atlazdan donunun olması, gümüş kimi parıldaması, ipəyə bənzədilməsi təşbehdir. "Tonqal" şeirində də şair tonqalı qırmızı gülə, bir dəstə sünbülə, laləyə, al piyaləyə, al günəşdən ibarət xonçaya, səsini nəğməyə bənzətməklə təşbehlər yaratmışdır ki, bu da uşaqlarda fantaziyanın artmasına xidmət edir.

A.Şaiqin əxlaqi-tərbiyəvi mövzularda yazdığı şeirlərdə uşaqlara əməksevərlik, təmizlik, elmə, biliyə həvəs kimi hislər aşılanır. "Bahar nəğməsi", "Əkinçi nəğməsi", "Dəmirçi nəğməsi", "May nəğməsi", "Məktəbli marşı", "Arı", "Yeni köməkçi", "Layla", "Çalışan qazanar", "Məktəbdə", "Oyan, oğlum" və s. şeirləri uşaqların mənəviyyatına müsbət təsir bağışlayır. Şair "Oyan, oğlum" şeirində oğlunun timsalında bütün uşaqları elmə, ədəbə səsləyir:

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə [8, s. 14].

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Mirmehdi Həsən oğlu Seyidzadənin (1907-1976) də uşaq ədəbiyyatının çiçəklənməsində, inkişafında əməyi az olmamışdır. "Abdulla Şaiqdən sonra Azərbaycan uşaq ədəbiyyatının əsasını qoyanlardan biri M.Seyidzadə olmuşdur" [1, s.197].

Ədibin "Bahar", "Bahar nəğməsi", "Yay", "Payız", "Qış gecəsində", "Meşələr", "Dağlar", "Bulaq", "Çay", "Göy qurşağı", "Qocaman palıd", "Alma", "Akasiya", "Quzum" şeirləri təbiətə məhəbbət mövzusundadır. Şair ana təbiətin əsrarəngiz gözəlliklərini tərənnüm etməklə balaca oxuculara estetik zövq aşılayır, onlarda Azərbaycanımızın fauna və florası haqqında ilkin təəssürat formalaşdıraraq dünyagörüşlərinin artmasına səy göstərir.

M.Seyidzadənin "Çiçək kimi təmiz ol", "Qoca bənna", "Poladəridən", "Zəhmətin barı", "Taxıl zəmilərində", "Belə uşaqlar da var", "Yaxşı yoldaş", "Nənə və nəvə", "Dəyişib şıltaq qız", "Dostum", "Fərhadın etirafı", "İlk imtahan" və s. şeirlərində kiçik yaşlı oxuculara əməksevərlik, elmə, biliyə həvəs, böyüklərə hörmət, mehribanlıq kimi müsbət keyfiyyətlər təlqin olunur.

Şair “Çiçək kimi təmiz ol” şeirində şirindillilik, mehribançılıq, təmizkarlıq, böyüklərə hörmət kimi müsbət keyfiyyətlərin vacibliyini vurğulayır və deyir ki, yalnız bu xüsusiyyətlərə malik olanları insanlar sevər, xətrini əziz tutar, cəmiyyətdə hörməti olar:

Dilin acı olarsa,
Başın çəkəcək bəla.
Mehribanlıq yaxşıdır,
Kobudluq etmə əsla.

Çiçək kimi təmiz ol,
Gül kimi ətrin olsun!
Hörmət elə böyüyə,
Hər yerdə xətrin olsun [5, s.15-16].

Ədib “Böyük əməllər” şeirində gəncləri hünərli, mübariz, qüdrətli, əzmkar, qorxmaz, fədakar, elmli, bilikli, əməksever, çalışqan, zəhmətkeş olmağa dəvət edir:

Düşdün dəryalara – döyüş tufanla,
Şaxtaya düşəndə çarpış boranla.
Zəhmətlə, biliklə, hünərlə yüksəl!
Düşünməyən beyin, yaratmayan əl
Çürümüş kötükdür, qurumuş budaq.
Yaradan yaşayır dünyada ancaq [4, s.10] .

Şeirdən çıxan nəticə budur ki, insan yüksək amallara qulluq etməli, cəmiyyətə, elinə, xalqına faydalı olamağa can atmalıdır.

Elinin-obasının aşiqi, əsl vətəndaş olan M.Seyidzadənin şeirlərində doğma yurda məhəbbət, vətənpərvərlik mövzusu başlıca yer tutur. Onun qəzəl janrında yazdığı “Bu ellərdə”, “Vətən lövhələri”, “Vətənimsən”, “Bahara dönüb”, “Vətəndə”, “Əmr etsə Vətən” şeirləri böyük yaşlı məktəblilərin vətənpərvərlik ruhunda yetişməsində böyük əhəmiyyətə malikdir. Bu şeirlərdə oxucuya elinin rifahı naminə əziyyətə qatlaşmaq, zəhmətkeş olmaq, lazım gələrsə vətən uğrunda candan keçmək kimi ali hislər aşılanır. “Əmr etsə Vətən” şeirində şair deyir:

El dərdini duymaz elə biganə olanlar,
Hər arifə el zəhməti asan gərək olsun.

Mir Mehdi deyir: yurdumuzun aşıqıyəm mən,
Əmr etsə Vətən, can ona qurban gərək olsun [3, s.57].

Nəticə

XX əsrin əvvəllərində formalaşan Azərbaycan uşaq poeziyası bədii yaradıcılıqla pedaqogikanın mükəmməl sintezidir. M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, M.Seyidzadə kimi mütəfəkkirlərin qələmə aldığı poetik nümunələr sadəcə öz dövrlərinin dərslik ehtiyacını qarşılamamış, həm də gələcək nəsillərin mənəvi, estetik və intellektual inkişafının fundamental təməlini qoymuşdur. Təbiət sevgisindən əmək tərbiyəsinə, elmə çağırışdan milli kimlik şüuruna qədər geniş mövzu palitrasına malik olan bu zəngin irs öz bədii aktuallığını və tərbiyəvi əhəmiyyətini bu gün də itirməmişdir. Klassik uşaq poeziyamızın öyrənilməsi və təbliği müasir dövrdə də uşaqların düzgün formalaşması üçün əvəzsiz mənbə olaraq qalmaqdadır.

Ədəbiyyat:

1. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı, 2004, 497 s.
2. Sabir M.Ə. Hophopnamə. Bakı, "Təhsil", 2012, 552 səh.
3. Mirmehdi Seyidzadə. Seçilmiş əsərləri. Bakı, "Avrasiya press", 2006, 320 s.
4. Seyidzadə M. Xatırlayarsan məni. Bakı: Gənclik, 1978, 260 səh.
5. Seyidzadə M. Həyat eşqi. Bakı: Gənclik, 1968, 386 səh.
6. Səhhət A. Biblioqrafiya. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2017, 224 s.
7. Səhhət A. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2005, 456 səh.
8. Şaiq A. Seçilmiş əsərləri. III cild. Bakı, "Avrasiya press", 2005, 536 s.